Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycançılıq ideyasının təbliği

# Dilsiz Azərbaycançılıq ideyası ola bilməz - Prezident məsələni kəskin qoydu...

**Azərbaycançılıq müstəqil, suveren Azərbaycanın istiqlalını və bu ölkədə dünyəvi prinsiplərə malik sivil demokratik dövlət uğrunda mübarizəni strateji məqsəd seçən Azərbaycan xalqının ideologiyasıdır. Onun əsasında Azərbaycanı özünə vətən sayan bütün xalqların milli, etnik, dini və sosial hüquqlarının bərabərliyi ideyası dayanır. Azərbaycançılığın bütün dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gəlməsi, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi Ümummilli lider Heydər Əliyevin tarixi xidmətidir.**



Heydər Əliyev hələ Sovet dövründə Azərbaycana rəhbərlik edərkən azərbaycançılıq məfkurəsinin bütün həmvətənlərimiz arasında yayılmasına, bu ideyanın geniş ictimai dəyər qazanmasına çalışıb. Azərbaycançılıq ideyasının kökündə millətçilik yox, vətəndaşlıq dəyəri dayanır. Bu ideyanın məqsədi çoxmillətli Azərbaycan xalqının birləşməsi və demokratik yolla inkişaf etməsinə zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdır.

**Dilin saflığının qorunması hər bir vətəndaşın işi olmalıdır**

Məlum olduğu kimi, Prezident AMEA-nın 80 illik yubileyində dilimizin qorunması ilə bağlı xüsusi öhdəlik qoydu: "Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Yenə də deyirəm, 10 il bundan əvvəl mən bu məsələni qaldırmışdım. Çünki bu, məni narahat edirdi. On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya bilək. Amma yenə də oradan-buradan eşidirəm, - həm televiziyalarda, həm yazılı mediada, həm bəzi insanların çıxışlarında, - buna heç bir gərək yoxdur. Yəni, biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər".

Azərbaycan dilinin qorunması azərbaycançılıq ideyasının təbliğində, onun qorunmasında necə effektiv rol oynaya bilər? Çünki bunlar bir-biri ilə sıx bağlıdır.

**Azərbaycan dili azərbaycançılıq ideologiyasının, azərbaycanşünaslığın canlı daşıyıcısıdır**

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən yazıçı-publisist, Beynəlxalq "Alaş" Ədəbiyyat mükafatı laureatı Əkbər Qoşalının fikrincə, Prezident İlham Əliyevin AMEA-nın 80 illik yubileyində dilimizin qorunması haqqında xüsusi vurğusu sıradan bir çağırış deyil: "Bu, həm ideoloji ismarıcdır, həm strateji bir yöndür, həm də milli təhlükəsizlik səviyyəsində vacib bir öhdəlik dərəcəsidir. Dövlət başçısının Azərbaycan dilinin saflığının qorunmasını hər bir Azərbaycan vətəndaşının işi kimi xarakterizə etməsi təkcə dilçilərə və yazarlara aid edilən məsuliyyət deyil; bu, hamımıza, özəlliklə də informasiya istehsal edən və onu dövriyyəyə buraxan aydınlara birbaşa ünvanlanmış tapşırıqdır.

Dil - milli kimliyin üstün yaddaşıdır. Baxın, azərbaycançılıq ideyasının özülündə üç əsas sütun dayanır:

1. Vətəndaşlıq və dövlətçilik duyğusu;
2. Tarixi-mədəni yaddaş;
3. Azərbaycan dili.

Bu üçlüyün üçüncüsü - ana dilimiz - digər ikisini həm ifadə edən, həm də möhkəmləndirən vasitədir. Dil yalnız ünsiyyət vasitəsi kimi qavranmamalıdır; o, tarixdir, yaddaşdır, düşüncə tərzidir. Ulusun öz kimliyini qorumasının əsas yolu dil kodunun, strukturunun qorunmasından keçir. - Biz onu, o da bizi qoruyur…

Bəli, "dil millətin nəfəsidir" deyənlər haqlı idi. - Nəfəs pozularsa, yaddaş da zədələnər, kimlik də. Prezidentin 10 il öncə də bu məsələni qaldırdığını xatırlatması təsadüfi deyil. Bəlli olduğu kimi, son on ildə:

-informasiya mühiti sürətlə qloballaşıb;

-sosial şəbəkələr yeni dil davranışları yaradıb;

-televiziya və media dili qeyri-peşəkar təsirlərə məruz qalıb;

-yad dillərin - özəlliklə də ingilis, rus və bəzən ərəb-fars dilinin - mətnlərə tənzimlənmədən daxil olması halları artıb yaxud azalmalı olduğu qədər azalmayıb. Bu fonda ana dilinin saflığının qorunması sadəcə mədəni məsələ ola bilməz - o, artıq milli kimlik təhlükəsizliyinin tərkib hissəsidir. Azərbaycan dili - azərbaycançılıq ideologiyasının, azərbaycanşünaslığın canlı daşıyıcısıdır.

Başqa sözlə, azərbaycançılıq dilsiz tamamlanmır. Çünki:

1. Dil milli birliyi formalaşdırır

Dövlət sərhədlərindən Ərzuruma, Borçalıdan Dərbəndə, Güney Azərbaycandan Kərkükə, hətta Əfqanıstana qədər uzanan böyük coğrafiyada dilimiz bizi birləşdirən böyük mədəni körpüdür. Dilin zədələnməsi bu mədəni birliyi zəiflədir.

2. Dil dünyagörüşü yaradır

Azərbaycançılıq - həm siyasi, həm də mənəvi ideyadır. Bu ideya ana dilinin semantik qatlarında yaşayır:

"yurd", "daş yeri", "ocaq", "qayğı", "vicdan", "el", "qardaşlıq", "bütövlük" kimi sözlər yalnız leksika deyil; milli kodlarımızdır. Dil dəyişərsə, bu kodların anlamı soluxmağa başlayır".

Ə.Qoşalı onu da qeyd etdi ki, dil informasiya müharibəsində identikliyi qoruyur: "Müharibədən sonrakı dövrdə Azərbaycanımızın qarşısında yeni ideoloji meydan açılıb. Bu meydanda böyük silahlardan biri söz və onun düzgün istifadəsidir. Televiziyalar, media platformaları, sosial şəbəkə aparıcıları qeyri-standart, yarımçıq, yad dillərin təsiri altında yaranmış konstruksiyaları dövriyyəyə buraxanda, milli informasiya mühiti təhrifə uğrayır. Bu isə tədricən milli identiklikdə boşluq yarada bilər. Dildə saflığı milli ruhun saflığı bilənləri haqlı sayıram. Əgər dil gərgin deformasiyaya uğrayırsa, sanki Azərbaycan kimliyinin sütunları da aşınmağa başlayır. Unutmayaq ki, Cümhuriyyət dönəmində ilk böyük milli layihə Azərbaycan dilinin dövlət dili elan edilməsi idi. Sovet dönəmində də ən önəmli direniş nöqtəmiz məhz dil olub. Günümüzdə isə bu direniş yeni mərhələyə qədəm qoyur. Söhbət yad təsirlərdən özümüzü qoruma, milli düşüncəni milli dildə ifadə etmə, dilimizi müasirləşdirərək saflaşdırma mərhələsindən gedir.Bəs Azərbaycan dili azərbaycançılığı necə gücləndirir?

Birincisi, dil milli özünüdərk yaradır. Azərbaycan dilində danışmaq - ünsiyyətdən üstün, milli aidiyyət hissinin gündəlik təsdiqidir. Bu, özəlliklə gənclər üçün identiklik tərbiyəsidir;

İkincisi, dövlətçilik düşüncəsini gücləndirir. Rəsmi idarətmədə, medianın əsas platformalarında dilin saflığı ciddiyyət, mədəni səviyyə və intellektual nüfuz yaradır;

Üçüncüsü, dil milli mədəniyyətin qoruyucusudur. Aşıq yaradıcılığı, muğam, dastanlar, klassik poeziya - bunların hamısı dili qoruyaraq, dildə qorunaraq bizə gəlib çatıb. Dil saf olmasa, bu irs gələcək nəsillərə tam ötürülə bilərmi?

Dördüncüsü, dil, bir növ, dünyaya açılma modelimizdir. Azərbaycan dilinin qorunması digər dillərlə rəqabəti əngəlləmir; əksinə, özünəxas kimlik yaradır. Heç bir güclü millət öz dilini zəiflədərək qloballaşmayıb. Azərbaycan da, haqlı olaraq, bu yolla gedir.

Beləliklə, dil - milli varlığımızın təməl qatıdır. Prezidentin verdiyi mesaj dilçilərə akademik tapşırıq olmaqla bitmir və cəmiyyətimizə ünvanlanmış milli kimlik çağırışı olaraq qavranmalıdır. Dilimizin saflığı estetik məsələ olmaqdan daha üstün - strateji məsələdir.

Qoruduğumuz hər bir söz, seçdiyimiz ifadələr, yazdığımız hər mətn azərbaycançılığın bir kərpici deməkdir. Bu səbəbdən ana dilinin saflığının qorunması - həm milli borcumuzdur, həm də gələcək nəsillərə böyük mirasımız".

***Vidadi ORDAHALLI***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur***